Tarix və onun problemləri, №2 2010

**CAVİD BAĞIRZADƏ**
***Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının baş müəllimi***

# KƏLBƏCƏR BÖLGƏSİNİN İLK ORTA ƏSR ABİDƏLƏRİ

Arxeoloji baxımdan Azərbaycanın zəngin bölgələrindən biri olan Kəlbəcər ərazisi hələ 1993-cü ilə qədər arxeoloqlarımız tərəfindən öyrənilmiş, buranın arxeoloji abidələri haqqında ayrı-ayrı elmi tədqiqat əsərlərində məlumatlar verilmişdir. Lakin bununla belə bəhs olunan bölgə müxtəlif dövrlərə məxsus arxeoloji abidələrlə olduqca zəngin olduğundan yeni məlumatların geniş elmi ictimaiyyətə çatdırılması zərurəti vardır.

Kəlbəcər bölgəsi təbii – coğrafi şəraiti baxımından bol sulu çayları, zəngin və füsunkar gözəlliklərə malik təbiəti, təbiətən müdafiəsi güclü olan coğrafi – strateji mövqeyə malik olması ilə seçilir. Buna görə də Kəlbəcər ərazisində ilk orta əsrlər dövrünə aid istehkam qalaların mövcud olması təsadüfi deyildir. Kəlbəcər ərazisindəki mövcud qalalar haqqında mənbələrdə kifayət qədər olmasa da, məlumatlar vardır. Bu məlumatlarda haqqında bəhs etdiyimiz qalalar adətən güclü istehkam və müdafiə qabiliyyətinə, quruluşuna malik «əlçatmaz qalalar» kimi xarakterizə olunmuşdur.

Kəlbəcər bölgəsindəki qalalar əsasən Tərtər çayı boyunca, onun sağ və ya sol kənarlarında müəyyən məsafələrdən bir olmaqla inşa edilmişdir. Kəlbəcər ərazisindəki qalaların bu cür sıralanması araşdırmalar nəticəsində təsadüf olmadığı aydınlaşdırılmışdır. Belə ki, ilk orta əsrlər dövründə Qafqaz Albaniyasının paytaxtı Bərdədən başlayaraq Dəbilə kimi uzanan ticarət – karvan yolu məhz Tərtər çayı boyunca cənubi – qərbə doğru istiqamət almış, Kəlbəcərdən Zod aşırımı vasitəsilə Göyçə mahalına, buradan da Sisəcana, oradan da Dəbilə gedib çıxmışdır (6, s.217-218).

Beləliklə, Kəlbəcər bölgəsindəki qalaların Tərtər çayı boyunca yerləşməsi və onların hansı məqsədlərə xidmət etməsini aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Bu qalalar hərbi toqquşmalar, döyüşlər və yadellilərin hücumu zamanı müdafiə və sığınacaq rolunu oynamışdır;

2.Ticarət – karvan yolunun üstündə yerləşmələri ilə gediş – gəlişin təhlükəsizliyinə xidmət etmişlər;

3.Həmçinin ticarət – karvan yolu daimi işlək olduğundan hərəkət edənlərin dincəlməsi, dayanması, gecələməsi, qalması və s. kimi məqsədlər üçün bu qalalar rol oynamışlar.

Tarixi coğarfiya baxımından müasir Kəlbəcər ərazisi Qafqaz Albaniyasının Arsax vilayətinin tərkibinə daxil idi. Musa Kaqankatlının «Albaniya tarixi» əsərində «Arsax vilayətinin əlçatmaz qalaları»ndan bəhs olunur.

Qafqaz Albaniyasının Arsax vilayətindəki «əlçatmaz qalalar»ın izlərinə paytaxt Bərdəyə yaxın, Tərtər çayı boyunca məhz indiki Kəlbəcər ərazisində rast gəlinir. Bizans imperatoru II İraklinin ordusunun, eləcə də Xəzər xaqanın oğlu Sadın qoşununun Albaniyaya yürüşləri zamanı paytaxt Bərdənin əyanları, ölkənin hakimləri, zadəganları bu qalalarda sığınacaq tapmışlar (1, II kitab, X fəsil).

Təbii coğrafi təsvirlərdən də aydın olur ki, bu qalalar indiki Kəlbəcər bölgəsində yerləşmişdir. Digər tərəfdən bölgədəki qalaların quruluşu, onların inşa edildiyi yerlər «əlçatmaz qalalar» ifadəsini bir daha təsdiq edir.

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, karvan yollarına gözətçilik məqsədilə inşa edilmiş Kəlbəcər ərazisindəki bu qalalardan nisbətən salamat qalanı «Lök» qalasıdır. Qala quruluşuna görə dəvə boynuna bənzəyir. Yerli əhali məhz bu bənzərliyə görə qalaya «Lök» adının verilməsini iddia edirlər.

Lök qalası Tərtər çayının sol kənarında təxminən 5 km məsafədə, Kəlbəcərin Lev kəndinin ərazisində yerləşir. Qaladan Kəlbəcər rayon mərkəzinə təxminən 20 km məsafə vardır. Qala əzəmətli və nəhəng bir qayalıq üzərində ucaldılmışdır. Qalaya bir yerdən – daşlar üzərində açılmış dar cığırdan ibarət yol var. Bu yolun sərt döngəsində kiçik bir gözətçi yeri düzəldilmişdir. Gözətçi yeri elə bir yerdə, ustalıqla düzəldilib ki, burada gizlənən və ya gözətçilik edən bir nəfər belə təkbaşına böyük bir dəstəni adi uzun ağacla itələyib uçurumdan, sərt qayadan sala bilər.

Qalanın inşasında əsasən yerli çay daşlarından, qara daşlardan və əhəng məhlulundan istifadə edilmişdir. Qaya üzərində inşa edilmiş Lök qalasının divarları qayanın ətrafı boyunca dövrələnmişdir. Qala divarları əksər yerlərdə dağılmış vəziyyətdə olsa da öz əzəmətliyini saxlamaqdadır. Qala divarlarının hündürlüyü üzərində olduğu qayanın relyefinə görə dəyişsə də, əsasən 5 – 6 – 7 metr təşkil edir. Divarların eni təqribən 1 – 1,5 metrdir. Qalanın içərisində qayalar bir neçə yerdən çapılmış, oyulmuş və nəhəng quyular qazılmışdır. Görünür bu quyularda ərzaq və ilk növbədə su ehtiyatı saxlanırmış. Ətrafdakı hündür dağdan qalaya su borusu çəkilmişdir. Lök qalasının sol tərəfində, Tərtər çayının qollarından biri olan Lev çayı görünən istiqamətdə qabağı açıq, bir – birinə yaxın iki mağara vardır. Bu mağaralar ərzaq ehtiyatını uzun müddət xarab olmadan və keyfiyyətini itirmədən saxlamaq üçün düzəldilmişdir. Yerli əhalinin verdiyi məlumata görə bu mağaralarda ət, süd məhsulları və s. kimi ərzağı uzunmüddət saxlamaq olur (5, s.17).

Lök qalası yaxınlığında Xos meşəsi adlanan yerdə xristian məbədin divar qalaları və çoxlu sayda məzar daşları vardır. Məbədin divarlarında Qafqaz Albaniyasının xristian abidələrində rast gəlinən zambaqvari güllü xaç işarələri həkk edilmişdir. Məzar daşlarında da eyni xaç işarələri vardır. Lakin qalanın özündə nə məzar daşlarına, nə də ki, xristian xaç işarələrinə təsadüf edilməmişdir. Çox güman ki, dini ayinlər qaladan kənarda bəhs etdiyimiz meşə ərazisində icra olunmuş, ölüləri burada dəfn etmişlər.

Qalada müxtəlif dövrələrə aid şirli və şirsiz saxsı qabların qırıntılarına, qalıqlarına rast gəlmək olur. Bununla da aydın olur ki, Lök qalasında uzun yüzilliklər boyu yaşayış olmuşdur. Qalanın içərisində binalar qalmasa da və ya bina qalıqlarına təsadüf edilməsə də, çoxlu kalafa yerləri vardır. Güman etmək olar ki, bu kalafa yerləri vaxtilə burada mövcud olmuş bina, ev və ya otaqların bünövrə yerləridir.

Kəlbəcər bölgəsindəki qalalar içərsində öz yüksəkliyi ilə Comərd qalası seçilir. Bu qala Comərd kəndindən yuxarıda yerləşən qayalığın üzərində tikilmişdir. Qalanın Tərtər çayına sarı olan sol tərəfinin altı elə hündür sərt qayalıqdır ki, bura quşdan başqa heç bir canlı çıxıb enə bilməz. Qalanın sağ tərəfində uca çıxılmaz qalın divarlar hörülmüşdür. Burada dağıntı Lök qalasına nisbətən daha çoxdur. Yerli əhalinin verdiyi məlumata görə qalanın divarlarını bir neçə yerdən amonal partladıcı maddəsi ilə uçurub dağıtmışlar. Comərd qalasının təbii mövqeyi istehkam – müdafiə qabiliyyəti baxımından olduqca güclüdür. Qalaya at və digər minik heyvanları ilə çıxmalı olsan və ya yaxınlaşmaq istəsən də, yenə ən azı təqribən 500 metr məsafəni dik yamacla mütləq piyada çıxmalı olursan. Qaladan xeyli aşağıda yol aşırımında artıq məzar daşları torpağa batıb görünməz olan qəbirstanlıq vardır. Bu əzəmətli qala sığınacaq, mühafizə və müdafiə məqsədilə inşa edilmişdir. Comərd qalasının divarlarının inşa xüsusiyyətləri Lök qalası ilə eynidir.

Kəlbəcər bölgəsinin ilk orta əsrlər qalalarından biri də Qaraçanlı qalasıdır. Qaraçanlı qalası Kəlbəcər rayon mərkəzindən təqribən 8 km aralıda, Tərtər çayının sağ sahilində, üstü qismən düzəngah olan qayalıqlar üzərində inşa edilmişdir. Qalanın giriş tərəfində daşdan hörülmüş qapı divarının bir yanı salamat olaraq dövrümüzə qədər qalmışdır. Qalaya çıxmağa mümkün olan yerlər hasar divarları hörülməklə keçilməz edil-

mişdir. Qaraçanlı qalasının gizli bir su yolu yarı dağılmış vəziyyətdə qalmaqdadır. Qalanın sağ yanında Qaraçanlı çayına qədər böyük bir çınqıllıq vardır. Qalanın alt tərəfindən bu çınqıllığın içi ilə üstü daş sallarla örtülmüş bir yol salınmışdır. Bu gizli yol çayın göllənən yerinə qədər enir. Yol gölün üstünə əyilən qayanın altından çıxdığına görə buranı ətrafdan görmək mümkün deyil. Sonralar çayın sahili ilə Qaraçanlı kəndinə yol çəkilən zaman gölün üzərinə əyilən qaya partladılmışdır.

Qaraçanlı qalasının yaxın ətrafındakı ərazidə ilk orta əsrlər dövrünə aid zəngin arxeoloji abidələr mövcuddur. Bunlar əsasən alban xristian qəbir abidələri, kilsə-monastr kompleksləri və s.

Kəlbəcərin Laçın kəndi yaxınlığında eyni adlı, hündürlüyü təxminən 200 metrə çatan və üstü düzənlik olan nəhəng və əzəmətli qayanın üzərində ilk orta əsrlər dövrünə aid qala mövcuddur. Bu qala Tərtər çayının sağ sahilində qalın meşə yamacında yerləşir. Qalanın yerləşidiyi Laçın qayasının sərt sıldırım olması həmin abidəyə çıxmağa imkan vermir. Çox güman ki, qayanın içərisində qalaya gizli yol varmış. Yerli əhalinin verdiyi məlumata görə Laçın qaya abidəsinin yaxın ətrafından müxtəlif saxsı məmulatları, dəmir, mis məişət və bəzək əşyaları və s. tapılmışdır (5, s.22).

Tərtər çayının sağ sahilində, təqribən 2 – 3 km-də yerləşən Bəylik kəndinin yaxınlığında dağların arasında ilk orta əsrlər dövrünə aid qalanın qalıqları vardır. Qala yerində 200-dən çox binanın yerləri – kalafaları mövcuddur. Qalaya hündür dağdan çəkilmiş su xəttinin yeri dağılmış vəziyyətdə durur. Qala şiş qaya üzərində yerləşir. Vaxtilə mövcud olmuş bina qalıqları, qala divarlarının qalıqları inşaat xüsusiyyətlərinə görə bəhs etdiyimiz qalalara bənzəyir. Kəlbəcər bölgəsinin yaxınlığındakı kəndin adı ilə adlanan Qalaboynu qalası digər qalalarla müqayisədə daha çox xarabalığa çevrilmişdir.

Kəlbəcər bölgəsinin ilk orta əsrlər dövrünə aid qalaların çoxunun yerləri itib – batmış, onların yalnız nişanələri qalmaqdadır. Kəlbəcər ərazisindəki qalaların tarixi adları haqqında mənbələrdə, eləcə də əlimizdə heç bir məlumat yoxdur. Kəlbəcər ərazisi erməni qəsbkarlarının işğalı altında olduğundan buradakı ilk orta əsr qalalarının, müxtəlif dövrlərə aid zəngin arxeoloji abidələrin müasir vəziyyəti və aqibəti haqqında təssüf ki, heç bir fikir söyləmək mümkün deyil.

Kəlbəcər rayonunun Keşdək kəndi ərazisindəki məbəd yerində arxeoloji qazıntı işlərinə zərurət, bu abidənin dağıdılması təhlükəsindən irəli gəlmişdir. Kəlbəcər İstisu yolu genişləndirilərkən abidənin bir hissəsi dağıdılmış, yalnız kiçik bir hissəsi qalmışdır. Salamat qalan hissəni öyrənmək məqsədilə burada uzunluğu 12 m, eni isə 6 m olan bir sahədə qazıntı işinə başlanılmışdır. Qazıntı nəticəsində məbədin mehrab hissəsi və onunla əlaqədar arxeoloji qalıqlar aşkar edilmişdir. Qeyd etməliyik ki, qazıntı üçün seçilmiş sahə öz relyefi etibarı ilə cənubdan şimala doğru olduğu üçün mədəni təbəqənin qalınlığı cənubda 2,3 m olduğu halda, şimal tərəfdə 1,7 m müəyyənləşdirilmişdir. Qazıntı nəticəsində məlum olmuşdur ki, sahənin üst qatı uçub düşmüş orta hesabla 80 – 90 sm qalınlığında daşlardan ibarətdir. Bu daşların çoxu ətraf kəndlərin əhalisi tərəfindən aparılıb yeni inşaatda istifadə edilmişdir. Ona görə də məbədin uçmuş hissəsinin daş töküntüsü az qalmışdır. Qazıntı hissəsi daş töküntüsündən təmizləndikdən sonra məbədin divarlarının salamat qalmış hissəsi aşkar edilmiş və məbədin içərisi təmizlənmişdir. Qazıntı sona çatdıqda məlum olmuşdur ki, məbədin salamat qalmış hissəsi onun mehrabından və cəbbəxanalarından ibarətdir.

Məbəd ağ daşdan əhəng məhlulu ilə tikilmiş və öz dövrünə görə zəngin memarlıq naxışları ilə bəzədilmişdir. Onun salamat qalmış divarlarının hündürlüyü 1,1 m, eni 85 sm, uzunluğu isə 2,3 m olmuşdur. Məbədin döşəməsi sal daşlarla döşənmişdir. Mehrab hissəsinin eninin 1,6 m, uzunluğunun isə 1,8 m müəyyənləşdirilməsindən məlum olur ki,

məbəd o qədər də böyük olmamışdır. Mehrab hissə məbədin döşəməsindən 63 sm hündür düzəldilmişdir. Həm də mehrabın qarşı hissəsinə qoyulmuş daş bütöv olub, uzunluğu mehrabın eni boyu, yəni 1,6 m, eni 88 sm, hündürlüyü isə 63 sm idi. Bu daşın qarşı tərəfi, yəni görünən hissəsi iki sıra nar təsvirləri ilə bəzədilmişdir. Mehrabın orta hissəsində yuxarıdan enli, aşağıya doğru getdikcə nazikləşən dik bir daş qoyulmuşdur. Onun hündürlüyü 1 m, eni yuxarıdan 83 sm, aşağıdan 64 sm, ümumi qalınlığı isə 21 sm-dir.

Məbədin cəbbəxanası da ellipsvari düzəldilmişdir. Onun da döşəməsi daş olub, məbəddən xor üçün düzəldilmiş xüsusi arakəsmə vasitəsilə ayrılır. Bu arakəsmənin eni 52 sm-dir. İstər sağ, istərsə də sol cəbbəxanalarının dibə doğru qurtaracaq hissəsində 8 sm hündürlüyündə yüksəklik düzəldilmişdir. Buradakı iri həcmli daşların üzəri pərakəndə halda xaç təsvirləri ilə düzəldilmişdir. Hər iki cəbbəxana eyni ölçüdə olub, onların eni 1,65 m, uzunluğu isə 2,2 m-dir.

Öz quruluşu etibarı ilə üç neftli bazilikaları xatırladan bu məbədin başqalarından bir əsaslı fərqi vardır. Belə ki, bir qayda olaraq, başqa məbədlərdə cəbbəxanalar həmişə mehraba paralel və onunla eyni səviyyədə tikilir. Məbədin daxili genişliyinə mane olmamaq üçün cəbbəxanalar bir növ sağ və sol neftləri davamı olur. Burada isə cəbbəxanalar məbədin xor üçün düzəldilmiş hissəsi ilə yanaşı düzəldilmişdir. Görünür bu binanın xaricdən, daha doğrusu şərq tərəfdən xristianlığın müqəddəs işarəsi olan xaça oxşatmaq məqsədilə belə düzəldilmişdir.

Məbəddə istər cəbbəxanalar, istərsə də mərkəzi mehrablar dairəvi formada qoyulmuşdur. Məbədin qərb tərəfində mərkəzi neftin sağ və sol tərəflərində qırılmış halda iki sütun vardır. Bu sütunlar neft arası olmaqdan əlavə məbədin xor üçün düzəldilmiş hissəsi ilə qalan hissəsinin arasında qoyulmuşdur. Yan divarların davamından görünür ki, məbəd hələ qurtarmayıb davam edir. Təəssüf ki, həmin hissə uçduğundan onun tam uzunluğunu müəyyənləşdirmək mümkün olmamışdır.

Təsvir etdiyimiz məbədin quruluşu və arxitektura xüsusiyyətlərinə əsasən onun üç neftli bazilika olduğu ehtimala gəlmək olar. Ümumiyyətlə, Cənubi Qafqazda VI əsrin sonu – VII əsrin əvvəllərində memarlığa daxil olmuş bu cür bazilikalar tezliklə Gümbəzli bazilikalarla əvəz edilmişdir. Bazilikaların üst hissəsindəki xüsusi gümbəzlər, həm də xaricdən xaç quruluşu vermək üçün düzəldilirdi. Odur ki, VI – VII əsrlərdə cəbbəxanalar və mehrab vasitəsilə binaya xaç görkəmi vermək üçün onların qeyri-bərabər vəziyyətdə inşası texnikası sonrakı əsrlərdə gümbəzli bazilikalar vasitəsilə yerinə yetirilmiş və artıq cəbbəxanalar mehrabla bir səviyyədə inşa edilmişdir. Bu nöqteyi-nəzərdən haqqında danışdığımız məbəd qonşuluqda, Qərbi Azərbaycanda Ağrı dağı ətəyindəki Yevqard kəndi ərazisində aşkar edilmiş üç neftli bazilika ilə bir növ eyniyyət təşkil edir. Maraqlı cəhət budur ki, bütün Cənubi Qafqaz ərazisində gümbəzli bazilikanın ilk nümunəsi olan Dvin məbədi də özünün mehrab cəbbəxanalarının quruluşunu əvvəlki kimi saxlaması ilə tədqiq etdiyimiz məbəd ilə eyniyyət təşkil edir. Belə ki, bu tip abidələrin hələlik Kiçik Qafqaz rayonunda cəmi üç ədədi məlumdur. Yuxarıda göstərilən Yevqard və Dvin abidələri kimi təsvir etdiyimiz məbəd də VI – VII əsrlərə aiddir. Biz bunu məbəd materiallarının analizindən də görəcəyik.

Qazıntıdan aşkar olunmuş materiallar içərisində bir ədəd bəzəkli daş, bir ədəd epiqrafik abidə və xeyli gil qab hissələri diqqəti daha çox cəlb edir. Odur ki, həmin qazıntıların ayrı-ayrılıqda təsvirlərini verək.

Məbədin mehrab hissəsinin yan divarlarında üst hissəsi sınıb tökülmüş bir ədəd daş aşkar edilmişdir. Ağ əhəng daşından ibarət salamat qalmış hissənin hündürlüyü 1,2 m, eni 14 m qalınlığı isə 1 sm-dir. Daşın yuxarı hissəsi oyma üsulu ilə həndəsi və nəbati təsvirlərlə bəzədilmişdir. Yan hissələr isə memarlıq tarixində «səbətvari bəzək» adlanan

naxışlarla haşiyələndirilmişdir. Lakin ən maraqlı daşın aşağı hissəsində olan bəzəklərdir. Bu hissədə daşın orta hissəsi ovularaq dil kimi düzəldilmişdir. Çox güman ki, bu hissə ya şam qoyulmaq və yaxud da müqəddəs kitablar üçün nəzərdə tutulmuşdur. Həmin divarların sağ və sol tərəfində qarşı-qarşıya dayanmış, qabarıq halda iki quş təsvir edilmişdir. Quşların boğazına Mingəçevirdən aşkar edilmiş məbəd daşı üzərindəki lentlərdən fərqli olaraq halqa keçirilmişdir. Yeri gəlmişkən göstərmək lazımdır ki, ümumiyyətlə, memarlıqda bu növ quş təsvirləri Albaniyanın və Qərbi Azərbaycanın bir qrup dini abidələrində ilk orta əsrlərdə dəbdə olmuşdur. Sonrakı dövr abidələrində quş təsvirlərinə təsadüf olunursa da onlar bir sıra xüsusiyyət etibarı ilə əvvəlkilərdən fərqlənirlər.

Təsvir etdiyimiz daşın yuxarı hissəsində təsvir edilmiş quşun alt qanadının bir hissəsi qalmışdır. Ondan aydın oldu ki, burada həm də Alban xaçı təsvir edilmişdir.

Məbəddə ikinci mühüm tapıntı üzərində yazı olan bir ədəd daşdır. Nəzərə almaq lazımdır ki, bu daş məbədin divarlarındakı digər daşlardan fərqlidir. Belə ki, o, bərk cinsli qayadan götürülüb, kobud düzəldilmişdir. Bu daş sağ cəbbəxananın şərq tərəfində, çöl hissəsindən yerə düşmüş halda aşkar edilmişdir. Çox güman ki, o, ya qonşuluqda X – XII əsrlərdə tikilmiş məbəd uçarkən buraya düşmüş və yaxud da təsvir etdiyimiz bazilikanın divarına sonralar bərpa olunarkən qoyulmuşdur. Bu halda tikintinin dövrü ilə bu daşın dövrü arasında böyük fərq vardır. Daşın üzərində yazı olduqca kobud həkk edilmiş və işlənərkən bəzi hərflərin hissələri qopmuşdur. Bəzi hərflər isə digərləri ilə birləşərək litoqraf üsulunda yazılmışıdr.

Daşdakı yazı 7 sətirdən ibarət olub, böyük hərflərlə intervalsız yazılmışdır. Yazının ikinci sətrində «...» (Həsənin) sözü oxunur ki, bu da yəqin XII – XIII əsrlərdə Xaçın knyazlığının hökmdarları olmuş dörd Həsəndən biridir. Bəlkə də öz dövrünün görkəmli şəxsiyyətərindən biri olmuş Tərtər dərəsində adına çoxlu xatirə lövhələri düzəldilmiş Həsən Çalala aiddir. Hər halda bir həqiqət var ki, o da təsvir etdiyimiz yazının XII – XIII əsrlərə aid olmasıdır.

Göstərilənlərlə yanaşı qazıntı zamanı məbədin içərisindən xeyli gil qab hissələri də aşkar edilmişdir. Ayrı-ayrılıqda həmin qab hissələrinin təsvirlərini verməmişdən əvvəl bəzi xarakterik cəhətləri qeyd etmək lazımdır. Əvvəla qazıntı zamanı bir dənə də olsun şirli qab hissəsinə təsadüf edilməmişdir. Digər tərəfdən aşkar olunmuş məmulatlar başlıca olaraq ayrı-ayrı qazıntılara məxsus qulplardan və qab ağzının hissələrindən ibarətdir. Bir dənə də olsun bütöv qab tapılmamışdı. Aşkar olunmuş hissələr əsasən küp, bardaq və küvəcli qablara məxsusdur. Onların hamısı narın gildən hazırlanmış və qırmızımtıl rəngdə bişirilmişdir.

Aşkar olunmuş qab qulplarını öz formalarına görə bir neçə qrupa bölmək olar:

1.Üzərində barmağın söykədilməsi üçün xüsusi çıxıqlar düzəldilmiş, iri həcmli bardaqlara məxsus qulplar.

2.Kuvəc və ya tavalara məxsus üçbucaq və ya dairəvi qulplar.

3.Dopu tipli qablara məxsus dairəvi qulplar.

4.Küp və ya bardaqlara məxsus saya qulplar.

Birinci qrupa aid qulplar özləri də bir sıra əlamətlərinə görə bir-birindən fərqlənirlər. Bu qulplar üzərində barmağın söykədilməsi üçün gövdə üzərində üçbucaq formasında çıxıqlar düzəldilmişdir. Çıxıqların bəziləri içərisi balaca, yuxarısı isə azacıq maili düzəldilmiş «məməcikdən» ya qulpun gövdəsi üzərində düzəldilmiş dördkünc formalı qalın çıxıqdan, yaxud qulpun qabın boğazına birləşən hissəsində üçbucaq formada hazırlanmış ucluqlardan ibarətdir. Bu qulpların üzəri bəzən basma nöqtə ilə, bəzən də qulpun hissəsində üçbucaq formasında düzəldilmiş xüsusi məmziklə bəzədilmişdir. Axı-

rıncı növ çıxıntı qulplar yuxarı hissədən qaba, yanlara doğru ayrılmış xüsusi qanadcıqlar vasitəsilə yapışdırılmışdır ki, bu da onlara xüsusi gözəllik verir.

İkinci qrup kuvəclərə məxsus qulplardır ki, onlar da güllərinə və hazırlanma üsullarına görə eyni olsalar da bəzi əlamətlərinə görə bir-birindən fərqlənirlər. Qrupa daxil olan qulpların bir qismini üçbucaq formada hazırlanmış kuvəc qulplardan biri nisbətən qarışıq gildən hazırlanmışdır və bir növ iri kuvəcə məxsusudur. Onun üzəri gövdəyə doğru batıq xətlə bir-birinə paralel surətdə bəzədilmişdir. Yeri gəlmişkən qeyd edək ki, bu növ kuvəc qulpları, ümumiyyətlə, ilk orta əsrlərdən başlayaraq Azərbaycanda geniş yayılmışdır. Digər qulp da kuvəcə məxsus olub, nisbətən narın gildən və incə hazırlanmışdır. Əvvəlki qulpa nisbətən bu bir qədər kiçik həcmli kuvə aiddir. Bu qulpun da üzəri naxışlanmışdır. Naxış qulpların kənarları ilə düzülmüş batıq nöqtələrdən və bütün qulp boyu batıq xətlə çəkilmiş haşiyədən ibarətdir. Üç künc formada hazırlanmış qulplardan biri qabın gövdəsinin bir hissəsi ilə birlikdə aşkar edilmişir. O enli ağızlı tabaqvari qaba məxsus olub, bir qədər kobud hazırlanmışdır. Hazırlanan zaman onun uc hissəsi bir qədər əzilmiş və beləliklə də, simmetriya pozulmuşdur. Qulpun qaba birləşən yerində hər tərəfdə iki olmaq şərti ilə dörd batıq nöqtə qoyulmuşdur. Bu nöqtələr bir tərəfdən qulpu bir tərəfdən qulpu qaba daha möhkəm birləşdirmək üçün edilmişdirsə, digər tərəfdən də onlar bəzək rolunu oynayırlar. Bu növ qulplar da Azərbaycanda geniş yayılmışdır (9, s.54).

Kuvəc tipli qablara məxsus qulpların bir qismində çubuqvari və ya lentvari hazırlanmış yarımdairəvi olanları üstünlük təşkil edir. Onlardan biri narın gildən səliqəli hazırlanmış və enli ağızlı qaba məxsusudur. O, çubuqvari düzəldilmiş və qaba birləşən yerdə hər tərəfində biri olmaq şərti ilə iki kiçik hədd cızılmışdır. Bu xətlər yalnız bəzək rolunu oynamışdır. Yarımdairəvi qulpların digəri isə nisbətən qarışıq gildən lentvari düzəldilmiş və qalınlığından hiss olunur ki, irihəcmli qaba məxsusdur. Onun üzəri sayadır.

Kuvəc qulplardan danışarkən müstəsnalıq təşkil edən daha bir qulpdan da bəhs etmək lazımdır. Bu qulp öz forması ilə əvvəlkilərdən fərqlənir. Belə ki, o qalın və lentvari hazırlanmışdır. Qaba şaquli düzəldilmiş bir qulp tam dairəvi formada hazırlanmışdır. Enliağızlı qaba məxsus olan bu qulp qabın ağzına yaxın onun çiyini üzərində düzəldilmişdir. Bu növ qulplar eneolit dövründən başlayaraq məişətə daxil olmuş və orta əsrlərə kimi davam etmişdir.

Qazıntıdan aşkar edilmiş qulpların bir qismini də küp və ya bardaqlara məxsus lentvari və bir növ saya düzəldilmiş qulplar təşkil edir. Bu qulplar hamısı lentvari hazırlanıb, qırmızı rəngdə bişirilmişdir. Onların bəziləri tamamilə saya hazırlanmış, bəzisinin aşağı tərəfində üç batıq nöqtə qoyulmuş, bəzisində həmin nöqtələr əvəzinə iki batıq düz xətt çəkilmişdir. Daha başqalarını isə kənarları boyu bir-birinə paralel olan düz xətt vasitəsilə bəzəmişlər.

Qazıntıdan aşkar olunmuş dulus məməlumatlarının böyük bir qrupu müxtəlif qablara məxsusdur. Onların hamısı saya olub, üzərində heç bir naxışa təsadüf edilmir. Demək olar ki, onların hamısı narın gildən əldə hazırlanmış, duru gil məhlulu ilə anqoblanmış və qırmızı rəngdə bişirilmişlər. Aşkar olunmuş qab hissələrinin bir qismi küplərə, bir qismi xeyrə tipli qablara, digərləri isə kuvəctipli qablara məxsusdur. Hazırlandıqları məqsəddən asılı olaraq bu qabların ağız hissəsi həm köbərli, həm də saya düzəldilmişdir.

Qazıntı zamanı məbədin sağ cəbbəxanasının içərisindən bir ədəd su tüngünün hissəsi tapılmışdır. Öz diametri etibarı ilə çox da böyük olmayan su tüngü köbərli düzəldilmişdir. O, öz formasına görə Azərbaycanın digər yerlərindən aşkar edilmiş su tüngləri ilə eyniyyət təşkil edir. Ehtimal olunur ki, vaxtilə həmin tünglərlə abidənin təxmi-

nən 600 m qərbində, Keşdək dağının döşündə yerləşən bulaqdan məbədə su çəkilmişdir. Keşdək məbədinin qazıntısı zamanı yuxarıda təsvirini verdiklərimizdən əlavə heç bir şey tapılmamışdır. Beləliklə, məbədin quruluşunu, onun memarlıq xüsusiyyətlərini, oradan aşkar olunmuş dulus məmulatlarını nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, abidə üç neftli bazilika olub, kümbəzsiz bina edilmiş və VI əsrdən başlayaraq əsrlər boyu davam etmişdir. IX – X əsrlərdə məlum olmayan səbəbdən abidə dağıdılmış və onun əvəzində qonşuluqda hazırda xarabalığı qalan və yerli əhali tərəfindən «kilsə damı» adlanan böyük məbəd meydana gəlmişdir.

Kəlbəcər rayonundakı Kilsə kəndinin girəcəyində maraqlı memarlıq abidəsi olan bir məbəd yerləşir. Daxili hündürlüyü 4,8 metrə bərabər olan bu məbədin uzunu 14,3 eni 0,8 metrdir. Binanın kobud çapılmış daşlarından hörülmüş cənub fasadında yarımdairəvi tağlı, enli bir giriş qapısı vardır.

Məbədin daxili məkanı dayaqlarla üç hissəyə bölünür: astana rolunu oynayyan giriş, əsas ibadət yeri olan mərkəz, dərin mehrablı səcdəgah.

Zalın tağbənd şəkilli örtüyü dayaqlar üzərində yerləşərək iki tağla möhkəmləndirilmişdir. Mehrabın hər iki tərəfində isə dəhlizə bənzər ensiz artırma, geniş otaq və qurbangah vardır.

Binanın memarlığı eyni ərazidə yerləşən digər dini binalara (Bulanıq-su monastrı yaxınlığında, Zar kəndindəki məbədlərlə) məxsus idi, asketik formalarda həll edilmişdir. Məbəddə dekorativ bəzəklər yoxdur. Onun qərb fasad divarlarında hörgüyə daxil edilmiş bütpərəstlik stellasından binanın sonrakı təmiri zamanı istifadə edilmişdir. Stellanın nə məqsədlə yarandığı və əvvəllər harada yerləşdiyi bu gün daha çox maraq doğurur. Camaat arasında kilsənin xristianlığa qədər məbəd olduğu, stellanın isə Allah kimi orada yerləşdiyi güman edilir.

Stellanın (ölçüləri 1,6 x 0,9 metrdir) üzərində antromorf Allah təsvir olunmuşdur. Təsvirin başı yerində fırlanan bəzəkli dairə kosmik işıq-günəş və od rəmzi kimi verilib. Bu təsvirin yuxarı hissəsində yazılar da vardır. Maraqlıdır ki, bu stella üzərindəki rəmzi işarələrə görə tarixi Xaçın-Arsax knyazlığında yerləşən Çəpli və Lef kəndlərinin, Goranboy rayonundakı Xarxaput məbədlərindəki stellalara oxşardır (10, s.19).

Çox güman ki, xristian dini qəbul edildikdən sonra bu məbəd kilsəyə çevrilmiş, onun yarımdairə tağlı giriş hissəsi sərbəst işlənmiş üç xaç daşla bəzədilmişdir. Hər üç daşın işlədilməsində memorial stellaların Qafqaz Albaniyasında qəbul edilmiş bədii, dini tərtibatının müxtəlif üsullarından istifadə olunmuş və onlar dünyanı dərk etmənin üç pilləli strukturunda həll edilmişdir.

Zəngin bəzədilmiş soldakı xaç daşın aşağı hissəsi yeraltı, orta hissəsi yerüstü aləmin simvoludur. Üç xaçlı olan orta hissənin mərkəzindəki xaç kənarlarından demək olar ki, iki dəfə böyükdür. Xaçın yuxarı hissəsi isə yerüstü aləmdən kəskin surətdə fərqlənir. Sağ xaç daşın aşağı hissəsi qırılmışdır. Burada yerüstü aləmin təsviri daha maraqlıdır. Xaç qol-budaq atmış ağac şəklində xonçanın içərisində yüksəlir. Yuxarıda üzüm salxımları sallanır. Xaçın ətrafında, dörd küncdə verilən quş təsvirləri çox güman ki, müqəddəs ruh simvolu olan göyərçinlərdir. Xaçdaşın yuxarı hissəsi iki yaruslu həll edilmişdir. Yarusun birincisinə planetlərin hərəkətdə olduğunu ifadə edən zəncirvari naxışlar vurulmuş, ikinci hissə beş yerə bölünmüşdür. Üç orta bölmədə böyük rəmzi məna daşıyan zanbaq təsvirləri verilmişdir. Məlumdur ki, zanbaq mifologiyada məsumluqla bağlıdır. Xristianlıqda isə o, müqəddəslərin atributu sayılmışdır (12, s.32).

Üçüncü xaç yanı üstə atma şəklində qoyularaq özünəməxsus portalı tamamlayır. Bu daşın aşağı hissəsində həyat ağacı rəmzində xaç verilmşdir. Onun altındakı üç taxçanın hər birində isə qolqofun simvolu kimi xaç vardır. Hər üç xaçdaş əhalisi iki əsas

dinə (İslam və Xristianlığa) etiqad edən Qafqaz Albaniyası xaçdaşlarına xas olan müsəlman ornamentləri ilə bəzədilmişdir.

### *ƏDƏBİYYAT*

1.Kalankatuklu M. Albaniya tarixi, M.Qoş Alban salnaməsi. Bakı, 1993.
2.Геюшев Р.Б. Христианство в Кавказской Албании, Баку, 1984.
3.Məmmədov A. S.Allahverdiyeva, E.Abbasova. Kəlbəcər bölgəsində arxeoloji tədqiqatlara dair (Tarix və onun problemləri № 1, Bakı, 2006).
4.Təhməzov M. Kəlbəcər (ensiklopedik məlumatlar, toponimlər, fotoşəkillər, xəritələr). Bakı, Azərnəşr, 2008.
5.Dəlidağ Ş. (Əsgərov) Kəlbəcərin qəm dastanı, viran olan gülüstanı. Bakı, Çıraq nəşriyyatı, 1998.
6.Məmmədov A.M. Gəncə və onun ətrafının tarixi – arxeoloji tədqiqi (Ən qədim zamanlardan XIX əsrə qədər). Gəncə, 2008.
7.Məmmədov A.M. Xarxaput (Meşəli) kəndində Alban məbədi. Tarix və onun problemləri jurnalı, Bakı, 2003, №3, s.157-159.
8.Məmmədov A.M. Nizami əsrinin Gülüstan qalası. Bakı, 1989, (40 s.).
9.Məmmədov A.M. Gəncəbasar IV – XIII əsrlərdə (tarixi-arxeoloji tədqiqatlar), Bakı, 1993, (204 s.).
10.Məmmədov A.M. Gəncəbasarın Alban dövrü xristian abidələri, Bakı, 2000, (55 s.).
11.Геюшев Р.Б. Археологические обследования городища Ака-Шехер и крепости Чараберд (МВСПИАЭН в 1964 году в ССР. Баку, 1965).
12.Геюшев Р.Б. О Хотаванском монастре и его надписях, Изв.АН Азерб. ССР. Серия истории, философии и права, 1972, №3.

**JAVID BAGIRZADE**
***Head teacher of the department of Azerbaijani History of Ganja State University***

### FIRST MIDDLE AGE OF MONUMENTS OF KALBAJAR REGION

From the point of archeological view one of the rich region of Azerbaijan is the territory Kalbadjar. Till 1993 year it found uts place in the separate scientifik – investigated work. However, the participarion of both authors in the investigation of these mpnuments and deep propogandized of this region brout to the necessity to the news wide scientifc public.

The medieval castles of the Kalbajar Region The Constituent part of the Arsakh province of the Caucasus Albany is the modern Kalbajar area which is rich with medieval archeological monuments. Along the river Terter in the Kalbajar area there are fortresses belonging to medieval ages.

Among these castles and fortresses such as Lokh, Qarachanli, Jomerd, Qalaboynu and Lachinqaya monuments and etc. were investigated on historic – archeological way according to sources and scientific researches.

**ДЖАВИД БАГИРЗАДЕ**
***старший преподаватель кафедры истории Азербайджана***
***Гянджинский Государственный Университет***

### ПАМЯТНИКОВ РАННИХ СРЕДНИХ ВЕКОВ КЕЛЬБЕДЖАРСКОГО РЕГИОНА

Один из богатых с археологической точки зрения регионаов Азербайджана территория Кельбеджара еще до 1993 года нашла свое отражение в отдельных научно-исследовательских трудах. Однако участие в свое время обеих авторов в исследовании этих памятников и глубокое пропогандирование этого региона вызвало необходимость доведения до широкой научной общественности новых сведений.

Территория Крепости ранних средних веков Кельбеджарского региона современный Кельбеджар являющаяся составной частью исторической Арцахской области Кавказской Албании очень богата археологическими памятниками средних веков. В Келбеджарском регионе, вдоль реки Тартар есть защитные крепости средних веков. Из них Лок, Гарачанлы, Джомерд, Лачынгая, Галабойну и другие являются историко – археологическим объектом научно – исследовательского характера.

***Rəyçilər: t.e.n.A.Ş.Cavadov, t.e.d.A.M.Məmmədov.***

***Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının 05 may 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №10).***